ƏDƏBİYYAT QƏZETİ

# "Akademik Mirzə İbrahimov"



Şirindil ALIŞANLI
*professor*

***Mirzə İbrahimovun böyük bir epoxanı, özü də mürəkkəb, xalqın taleyi ilə bağlı ziddiyyətli, ağrılı-acılı zaman hüdudlarındakı çoxşaxəli fəaliyyətində sənətin nəzəri məsələləri, milli ədəbi irs, dünya ədəbiyyatı, müasir ədəbi prosesin problemləri xüsusi yer tutur.***

Azərbaycan xalqının dövlətçilik və ədəbi-bədii fikir tarixində müstəsna xidmətləri olan Mirzə İbrahimovun ömür və sənət yolunu müxtəlif problemlər işığında, özü də ədəbiyyatşünaslıq, tənqid, publisistika, elmi-biblioqrafik janrların imkanları müqabilində uzun illərdir araşdıran, sanballı, yüksək poliqrafik səviyyədə əsərlər nəşr etdirən professor Teymur Əhmədovun elmimiz qarşısında böyük xidmətidir, həm də məktəbidir. Teymur müəllimin digər sahələrdəki fəaliyyətinin ədəbi-mədəni fikir tariximizdəki yerini, çəkisini azaltmadan, onun Mirzə İbrahimov sənətinə və şəxsiyyətinə sabit, dəyişməz ehtiram və sevgisini Mirzə müəllim haqqında nəşr etdirdiyimiz xatirələr kitabının hazırlanması prosesindəki əməkdaşlığımız zamanı görmüş, bu məqamda ustad, müəllim yolunu əziz tutmağın nəcib, ibrətamiz, əyani nümunəsindən çox öyrənmişəm.

Mirzə İbrahimovun adı ilə bağlı məktəb böyük milli ideallanın, kişilik, ustadlıq, sənət-elm amallarının qovuşduğu mənəvi məkandır. Onun görkəmli tələbəsi, yorulmaq bilmədən milli-mədəni tərəqqi yolunda həsəd doğuran gənclik ehtirası ilə çalışan professor Teymur Əhmədovun "Akademik Mirzə İbrahimov" əsəri təkcə bu böyük şəxsiyyətin yaradıcılığı ilə məhdudlaşmır, XX əsr Azərbaycan ədəbi-nəzəri fikrinin əsas inkişaf yönümləri, bu sahədəki dövlətçilik meyarları, hakim siyasi rejimlə ədəbi-mədəni həyatın kəsişən və ayrılan yolları haqqında zəngin faktik materiala söykənən təsəvvür yaradır.

Məlum olduğu kimi, Mirzə İbrahimovun böyük bir epoxanı, özü də mürəkkəb, xalqın taleyi ilə bağlı ziddiyyətli, ağrılı-acılı zaman hüdudlarındakı çoxşaxəli fəaliyyətində sənətin nəzəri məsələləri, milli ədəbi irs, dünya ədəbiyyatı, müasir ədəbi prosesin problemləri xüsusi yer tutur. Geniş oxucu kütləsinə təqdim olunan bu monoqrafiyaya zəngin arxiv materialları, elmi-nəzəri araşdırmalar, xatirələr, ümumən XX əsrin böyük bir dövrünün ədəbi-ictimai gedişatının kontekstində Mirzə İbrahimovun böyük yazıçı olduğu kimi, daşıdığı akademik adına hörmət və ehtiram gətirən bir tədqiqatçı alim, nəzəriyyəçi ədəbiyyatşünas və tənqidçi olduğunu təsdiq edir.

Azərbaycan Milli Elmlər Akademiyası 1945-ci ildə təsis olunarkən ona iki yazıçı həqiqi üzv seçilmişdir: Səməd Vurğun və Mirzə İbrahimov. XX əsr klassiklərini qatı inkarçılıq mövqeyindən dəyərləndirənlər, bu hadisəni hər iki yazıçının ictimai-siyasi nüfuzu ilə bağlamışlar. Bu amilin rolu şübhəsizdir, lakin XX əsr humanitar fikrinin tarixinə nəzər saldıqda görürük ki, Səməd Vurğun və Mirzə İbrahimov məhz 1930-40-cı illərdə milli tərəqqiyə yön verən şəxsiyyətlər idilər.

Teymur Əhmədovun bu monoqrafiyasının böyük bir üstünlüyü həm də ondadır ki, Mirzə İbrahimovun ədəbi-nəzəri irsi dövrün humanitar fikir tarixi, həm də dövlətçilik tarixi ilə paralеldə, bu zəmində tədqiq olunur. Belə tədqiqat üsulu predmetin özündən irəli gəlir və Mirzə İbrahimovun ədəbiyyatşünaslıq əsərlərinin bu kontekstdən kənarda tədqiqi onun milli vətəndaşlıq tutumunu, onun elmi ideyalarının xalqın milli tərəqqisindəki rolunu ortaya qoya bilməzdi.

Elmi işçi, İnstitutda şöbə müdiri, İnstitut direktoru, Respublika Ali qanunvericilik orqanın rəhbəri, SSRİ miqyasında rəhbər vəzifələr - hamısı akademikliyə aparan və bu statusa daim nüfuz qazandıran böyük şəxsiyyətin ömür yolu kimi yeni mövqedən öyrənilir. Akademikliyin elmi-mənəvi və dövlət-xalq naminə statusu monoqrafiyanın bütün fəsillərini, həmçinin bədii-publisistik materialların məqsədi, konseptual mahiyyətini ehtiva edir. Humanitar fikir tarixinə paralel öyrənilən Mirzə İbrahimovun buna mənəvi haqqı var idi və müasirlərinin çoxundan öndə gedirdi.

Monoqrafiyanın ilk fəslində müəllif haqlı olaraq M.İbrahimovun ədəbi-elmi və ictimai-siyasi fəaliyyətinə nəzər yetirir, respublikada və onun hüdudlarından kənarda M.İbrahimova xalqının ədəbiyyatı, dili, mədəniyyəti, tarixi haqqında akademik statusunda söz demək səlahiyyətini konkret əsərlərin təhlili, humanitar fikrə istiqamət verməyin elmi-təşkilati nümunəsini arxiv sənədləri, tarixi faktların məntiqi ilə göstərir.

**Mirzə İbrahimovun adı ilə bağlı məktəb böyük milli idealların, kişilik, ustadlıq, sənət-elm amallarının qovuşduğu mənəvi məkandır.**

Monoqrafiyada Mirzə İbrahimova bir ədəbiyyat nəzəriyyəçisi kimi nüfuz qazandıran, ədəbiyyat tarixini öyrənməkdə onun rəhbər tutduğu təhlil üsulları, metodoloji prinsiplərin şərhi öndə durur. Müəllif Mirzə İbrahimovun ədəbi-nəzəri görüşlərinin məzmun-mündəricə hüdudlarını, masştabını dəqiq müəyyən edərək yazır: "Mirzə İbrahimov orijinal bədii yaradıcılığında əsaslandığı prinsipləri bir nəzəriyyəçi alim kimi öz tənqidi-estetik tədqiqatlarında müdafiə edir, böyük ədəbiyyatın inkişafı uğrunda mübarizə aparır. Onun zəngin, özünəməxsus tənqidi görüşləri ədəbi irsə, müasir ədəbiyyatın aktual problemlərinə vətəndaş yazıçı mövqeyini aydınlaşdırır. Mirzə İbrahimovu nəzəriyyəçi, ədəbiyyat tənqidçisi və tədqiqatçısı kimi tanıdan hələ 30-cu illərin əvvəllərindən ardıcıl məşğul olduğu realizmin inkişaf mərhələləri, sənətkarlıq, ideyalılıq və xəlqilik, ənənə və novatorluq, realizmin romantika ilə əlaqəsi, ədəbiyyatların qarşılıqlı təsiri və zənginləşməsi problemləridir".

XX əsr Azərbaycan ədəbiyyatşünaslığında klassik irsi obyektiv dəyərləndirməyin klassik nümunəsi kimi "Böyük demokrat" (1939) monoqrafiyasını professor Teymur Əhmədov bu sahədə elmi fikrə istiqamət verən bir hadisə kimi qiymətləndirir. Bu sahədə mövcud olan elmi ədəbiyyatı, xüsusən M.İbrahimovun klassik irsə yanaşmasındakı nəzəri-metodoloji yenilikləri vaxtı ilə qeyd etmiş müəlliflərin mülahizələrinə obyektiv elmi prinsiplərlə yanaşan və vicdanlı alim mövqeyindən onları qiymətləndirən müəllif təkcə bu monoqrafiya ilə məhdudlaşmır, bütün klassiklərimiz haqqındakı M.İbrahimov tədqiqatlarının mərkəzində milli-mənəvi maraqların, milli tərəqqiyə xidmət edən, Azərbaycan xalqını dünyada təmsil edən bəşəri idealların dayandığını yarım əsrlik elmi yaradıcılıq yolunun zəminində şərh edir.

Monoqrafiyada M.İbrahimovun yaradıcılıq metodu, xüsusən realizm, Şərq renesansı ərəb və farsdilli Azərbaycan poeziyası haqqında konseptual fikirləri geniş şərh edilir, ən başlıcası isə bu tədqiqatların elmi demokratizmin bərqərar olduğu günlərimizdə nəzəri-metodoloji tutumunu itirməyən tərəflərinə diqqət ayırır. Məlumdur ki, Azərbaycan ədəbiyyatında realizm, Şərq renessansının yaradıcılıq metodu haqqında mübahisələrdə M.İbrahimov digər görkəmli tədqiqatçılarla yekdil deyildi. Bunun milli ədəbi fikir tarixi ilə bağlı tərəflərinə yenidən qayıdan monoqrafiya müəllifi - Teymur Əhmədov haqlı olaraq belə bir mövqedə dayanır ki, M.İbrahimov ədəbiyyatın bütün tarixi inkişaf mərhələlərində xalq təfəkkürünün, xalqın real həyat tərzinin bədii reallığına üstünlük verirdi. Çağdaş günlərimizdə anadan olmasının 300 illiyi dövlət səviyyəsində qeyd olunacaq M.P.Vaqif haqqında M.İbrahimovun aşağıdakı fikirləri öz yaşarlığını bir daha təsdiq edir: "Vaqif klassik ədəbiyyatın köhnəlmiş ənənələrini pozur. Şeiri xalqla daha artıq yaxınlaşdırır, xalq roluna uyğun sadə və təbii şəklə salır. Vaqif yazılı ədəbiyyatdan daha dərin tarixə malik olan və daim geniş xalq kütləsinin həyatını, arzu və istəklərini ifadə edən canlı, zəngin Azərbaycan folklorunu yaradıcılığının əsasına qoyur". Bu məqamda M.İbrahimovun "Aşıq poeziyasında realizm" kitabında geniş şərhini tapmış böyük milli sərvətimiz aşıq (yaxud saz) ədəbiyyatının böyük, tükənməz ədəbi-bədii, fəlsəfi-estetik cəbhəxana olduğunu xatırlatmaq yerinə düşər və aşıq poeziyasını folklor hesab etməyin keçmiş olduğunu yada salmaq istərdim.



M.İbrahimovun ədəbi-nəzəri irsi, bu səpkili əsərlərində əksini tapmış konsepsiyaları realizə etməkdə elmi-təşkilati fəaliyyəti T.Əhmədovun monoqrafiyasında bir-

birini tamamlayan tərəflər (mən deyərdim ki, eyni çəkidə, eyni əhəmiyyətdə olan) vəhdətdə öyrənilir.

M.İbrahimovun Cənubi Azərbaycan ədəbiyyatının tədqiqi və təbliği sahəsindəki fəaliyyətinə nəzər yetirdikdə bu böyük şəxsiyyətin gördüyü işin vətəndaşlıq tutumunun mənası, tarixi və müasir əhəmiyyəti bir daha göz önünə gəlir. Mübaliğəsiz demək olar ki, M.İbrahimov Cənubla bağlı böyük bir institutun işini görüb və onun yaratdığı şöbə bu gün də onun missiyasını davam etdirir. Teymur Əhmədov M.İbrahimovun yaradıcılığında Cənubi Azərbaycan ədəbiyyatı probleminə onun bədii yaradıcılığından başlayır, bu mövzunun ədəbiyyatımızın böyük bir qoluna çevrilməsində onun hekayə, povest və romanlarını, bədii publisist yazılarını, cənublu ziyalılarla yazışmalarını dövriyyəyə gətirir, Cənub ədəbiyyatının sistemli tədqiqinə ədəbi-bədii başlanğıc hesab edir. Başqa sözlə, ədib M.İbrahimovun alim, elmi təşkilatçısının məntiqi olduğunu, birinin digərini tamamladığını böyük təcrübəyə malik tədqiqatçı kimi uzlaşdırır.

M.İbrahimovun üççildlik "Azərbaycan ədəbiyyatı" tarixinin hazırlanmasındakı xidmətləri, 1948-1954-cü illərdə Nizami adına Ədəbiyyat İnstitutuna direktorluq etdiyi, eləcə də 1960-1965-ci illərdə həmin İnstitutun XIX əsr Azərbaycan ədəbiyyatı şöbəsinə rəhbərlik etməsi monoqrafiyada təsadüfi xatırlanmır. Belə elmi-təşkilatçılıq təcrübəsi zəminində Mirzə İbrahimov təxminən 200 illik dövr ərzində öyrənilməyən Cənubi Azərbaycan ədəbiyyatının inkişaf yolunu dərindən-dərinə tədqiq etməyi, ədəbiyyat tarixini ortaya qoymağı, sarsılmaz "mənəvi körpü" salmağı öhdəsinə götürmüşdü. Onun Azərbaycanın bütövlüyü uğrunda mübarizə yoluna işıq salan misilsiz xidməti ağılasığmaz fədakarlıq nümunəsi idi". M.İbrahimovla uzun illər bu sahədə çiyin-çiyinə işləmiş müəllifin Cənub şöbəsinin nəşrlərinə, xüsusən dördcildlik "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası"nın hazırlanmasında böyük enerji, təcrübə tələb edən yaradıcılıq prosesinə, bu məqamda M.İbrahimovun müdrik alimlik və təşkilatçılıq istedadına verdiyi dəyər yerindədir və onun yaratdığı bu elmi məktəbin mənasını bir daha bütün tərəfləri ilə üzə çıxardır. İkicildlik "Cənubi Azərbaycan ədəbiyyatı tarixi" bu antologiyaların zəminində yazılmış sanballı "tarix"dir və bu istiqamətdə aparılacaq çoxcildliklərin elmi-metodoloji əsasını qoyur. Teymur Əhmədovun da müəllifi və redaktoru olduğu bu dəyərli əsər haqqında görkəmli elm və söz adamlarının, ictimai xadimlərin mülahizələri monoqrafiyada yerinə düşür və M.İbrahimovun akademik-elmi təşkilatçısı kimi əvəzsiz xidmətlərinin mühüm sahəsinə işıq salır.

M.İbrahimov dilçi deyildi, ancaq Azərbaycan dilinin varlığı, gələcəyi naminə gördüyü işlər, ədəbi-fəlsəfi fikir tarixinin tədqiqi sahəsindəki xidmətlərini yada salmaq, ictimai fikir tarixində necə dəyərləndirilməsini daha əyani göstərmək üçün müəllif orijinal metod seçir. Elm, mədəniyyət xadimlərinin M.İbrahimovun bir alim, akademik kimi əsərləri, keçmiş SSRİ miqyasında Azərbaycan ədəbiyyatının tədqiqi, təbliği, ədəbiyyatların qarşılıqlı təsiri haqqında fikirlərini ayrıca başlıqda vermişdir.

Professor T.Əhmədovun "Akademik M.İbrahimov" monoqrafiyası təkcə bu böyük şəxsiyyəti, həm də böyük alim kimi təqdim etməklə yanaşı, XX əsr Azərbaycan ədəbi-nəzəri fikrinin inkişaf istiqamətləri haqqında dolğun təsəvvür yaradır.

**Ədəbiyyat qəzeti.- 2017- ci il.- 25 fevral.-S. 9.**